**Şəms Təbrizi**

# MƏQALAT

(SÖHBƏTLƏR)

Tərcümə edən:
Sevinc Natiqqızı

QANUN NƏŞRİYYATI

**Şems-i Tebrizi**

# MAKALAT

(KONUŞMALAR)

Şəms Təbrizinin "Məqalat (Söhbətlər)" kitabı çox əhəmiyyətli təsəvvüf mövzularını əhatə edir və eyni zamanda Mövlana Cəlaləddinin qaranlıqda qalmış bəzi yönlərini aydınlığa qovuşdurur. Kitabda Şərqin iki ulu dühası: Mövlana Cəlaləddin və Mövlana Şəmsəddin Təbrizidən söz açılır. Bu iki dahinin yolları bir zaman keçidində kəsişmişdi. Onlar birləşib insanlığa böyük töhfə verdilər.

Şəms Təbrizi Konyaya nə üçün gəlmişdir? Mövlananın normal həyatına öz gəlişi ilə rəng qatan bu insan kimdir? Buna bənzər bəzi məqamları və məlumatları bu əsərdə tapacağıq.

**Şems-i Tebrizi MAKALAT (Konuşmalar)**
**Şəms Təbrizi MƏQALAT (Söhbətlər)**

Janr: fəlsəfə
Yaş qrupu: 16+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Səhifə sayı: 376

Naşir: Şahbaz Xuduoğlu
Tərcümə edən: Sevinc Natiqqızı
Korrektor: Ceyran Abbasova
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-245-9

© Qanun Nəşriyyatı, 2016; 2026
© “Ataç yayınları”, 2012

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri
«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir

# İçindəkilər


**GİRİŞ ........................................................................................ 7**
- Şəms Təbrizi kimdir? ............................................................... 8
- İlk çağları........................................................................................ 11
- Şəmsin ailəsi.................................................................................... 13
- Konyaya ilk səfəri və Mövlana ilə görüş ................................. 13
- Şəms ilə Mövlananın ilk görüşlərinin yaratdığı əks-sədalar ..... 15
- "Cəvahir-ül Əsrar" Şəms haqqında nə deyir? ........................... 19
- Şəmsin son günləri ........................................................................ 20


**MƏQALAT (SÖHBƏTLƏR)**


**BİRİNCİ BÖLÜM ........................................................................ 23**
- **Mövlana Şəmsəddin Təbrizinin Konyaya gəlişi ................... 90**

**İKİNCİ BÖLÜM.......................................................................... 98**
- Xilaf (Mübahisə) mövzusu.......................................................... 107
- Düha surəsinin yeddinci ayəsinin mənası ................................ 108
- Ömərin mərtəbəsi ........................................................................ 108
- Həşr cəsədlərlədir, yoxsa ruhlarla? .......................................... 110
- Quran oxuyanlar .......................................................................... 114
- Qadınlar hamamına girən kişi ................................................... 115
- Neçə cür sərxoşluq var? .............................................................. 116
- Dağdakı Zahid .............................................................................. 117

**Yazışmalar, məktublar.................................................................. 251**
**Səid Müsseyebin hekayəsi .......................................................... 276**

**ÜÇÜNCÜ BÖLÜM: HU!** ........................................................ **289**
**Nurlar hər zaman bir-birinin dostudur** ........................................ **295**
**Allah Allahdır** ........................................................................ **355**
- Allahdan başqa İllah yoxdur ................................................ 357
- Məhəmmədin olduğu yerdə Adəm nə söyləyə bilər? ................ 357
- Nəsuh tövbəsi ...................................................................... 357

**Lüğət** ..................................................................................... **369**
**Adlar** ..................................................................................... **375**

# Giriş

İllərdir “Məqalat” və ya “Xirqeyi-Şəms” üzərində çalışıram. Günümüzün dili ilə “Söhbətlər” deyə adlandırdığımız bu əsərin əsli farsca və ərəbcə qarışıq XIII əsrdə yazılmış çox çətin deyimlərlə dolu bir əlyazmadır. Əsər çox əhəmiyyətli təsəvvüf mövzularını ələ alır və eyni zamanda Mövlana Cəlaləddinin qaranlıqda qalmış bəzi yönlərini aydınlığa qovuşdurur. Şəms Təbrizi Konyaya nə üçün gəlmişdir? Mövlananın normal həyatına öz gəlişi ilə rəng qatan bu insan kimdir? Buna bənzər bəzi məqamları və məlumatları bu əsərdə tapacağıq. Eyni zamanda bu əsərin çox çətin və tikanlı tərəfləri var. Və məhz bu xüsusiyyəti əsərin indiyə qədər tərcümə edilməsinə əngəl olmuşdur. Ancaq bir təsadüf nəticəsində mənim bu əsəri oxucularımıza təqdim etmə fürsətini yaxaladığımı qeyd etmək istəyirəm. Bu tərcüməyə mənbə olan kitab hörmətli dostum prof. dr. Ferudun Nafiz Uzlukun mənə hədiyyə etdiyi bir nüsxədən ibarət əlyazmadır. Bu mətin 27x21 ölçüdə və 326 səhifədir. Tarixi və yazarı anonim olan bu nüsxə mərhum mövləvi məşahirindən Ayaşlı Şakir tərəfindən Dərgah muzeyindəki orijinal mətndən surəti çıxarılmışdır.

Kitabda Şərqin iki ulu dühası: Mövlana Cəlaləddin və Mövlana Şəmsəddin Təbrizidən söz açılır. Bu iki dahinin yolları bir zaman keçidində kəsişmişdi. Onlar birləşib insanlığa böyük töhfə verdilər.

Mövlana Cəlaləddinin dünyagörüşünə Şəmsəddin Təbrizinin təsiri güclüdür. Mövlana əxlaqi-etik məsələləri aydınlaşdırarkən qaynağı ilkin növbədə Təbrizi olurdu.

Mövlana Cəlaləddinin ədəbi irsi Türkiyədə sistemli biçimdə öyrənilmişdir. Bilginlər çox zaman Mövlana Şəmsəddin Təbrizinin Mövlana Cəlaləddinə çıxılmaz təsirindən geniş və ətraflı söhbət açmırlar. Mövlananın ədəbi təsir dairəsi yan-yörəlidir. Onun xələflərindən yığcam şəkildə, sələflərindən isə boydan-boya danışılır.

Mövlana Cəlaləddinin və Mövlana Şəmsəddin Təbrizinin ədəbi əlaqələri, dostluq münasibətləri deyilənlərlə bitmir. Bu münasibətlər daha böyük, kompleks tədqiqat tələb edir. Bu da daha iri həcmli yazıların mövzusudur.

Qeyd edək ki, Mövlananın azərbaycanlı dostları çox idi. Onlardan Təbib Əkmələddin Naxçıvani və Qəzənfər Naxçıvaninin adları tarixin yadında qalıb.

Bu kitab eyni zamanda fars ədəbiyyatının xəzinəsi sayılır.

## Şəms Təbrizi kimdir?

Böyük arif Məlikdad oğlu Əli oğlu Məhəmməd Şəmsəddin tanrı vergisi, fitri istedad və qabiliyyət ilə doğulan Allah aşiqi, ilahi eşq şərabından məst olmuş həqiqət əhli, övliyadır. Hicrətin altıncı yüzilində Təbrizdə dünyaya göz açan Şəms Təbrizi hələ uşaqlıq və gənclik çağlarından bəri bir çox xüsusiyyətlərilə öz yaşıdlarından seçilmişdi. Həyat dolu, coşqun, hiss və düşüncə baxımından daim irəliyə baxan, öz dövrünün dəyər ölçülərini aşan bu möcüzə-uşaq özü haqqında bunları demişdi:

“Hələ yetkinlik çağına çatmamışdım. Elə ki eşq dəryasına qərq olurdum, 30-40 gün heç nə yeyə bilmirdim; günlərlə aclığa, susuzluğa tab gətirirdim. Günlərin bir günü atam əsəbiləşdi: “Oğlum, bu nədir, – dedi, mən sənin bu hərəkətlərini başa düşə bilmirəm; nə vaxta qədər belə olacaq? Bu cür hərəkətlərin axırı fəlakətdir”. Mən isə ona belə dedim: “Ata! Bilirsən, səninlə mənim əlaqəm nəyə bənzəyir? Bir toyuğun altına onun öz yumurtalarıyla qarışıq bir də qaz yumurtası qoyurlar. Vaxt gəlib çatır və cücələr çıxır. Bu cücələr öz analarının dalınca düşüb gedirlər bir gölün kənarına. Gölü görən kimi qaz yumurtasından çıxan cücə tez özünü atır suya. Bunu görən anaş toyuq “Vay, balam boğulacaq” deyib çırpınmağa başlayır. Halbuki qaz balası kef içində suda üzməkdədir. Bax, səninlə mənim aramdakı fərq də belədir”.

Əziz dostum prof. Təhsin Yazıcının tərcümə etdiyi Əhməd Əflakının “Ariflərin Mənqibələri”[1] adlı əsərində qeyd edilir ki, Şəmsəddinə Təbrizdə Şəms-i Pərəndə, yəni “Uçan Şəms” deyirmişlər. Əsəri oxuyanda bu ləqəbin ona tez-tez öz dövrünün ariflərini ziyarət etmək üçün müxtəlif şəhərləri gəzdiyinə görə verildiyi aydın olur. Həmçinin mənəvi ucalığı

[1] Rəvayət

və dərinliyi səbəbindən ona Kamil Təbrizi də deyirmişlər. Ancaq bu adın həm böyük ustad Şəmsəddin Məhəmmədə, həm də Şəmsəddin adlı başqa bir adama məxsus olması haqqında müxtəlif rəvayətlər var. Mərhum ustad Furuzanfərin İranda bir vaxtlar nəşr etdiyi "Mənakıb-i Evhaduddin-i Kirmanı" adlı əsərində Evhaduddin bunları danışır: "Kayseridə olduğum əsnada Kamil Təbrizi deyilən bir şəxs vardı; bu, pərişan halda olan bir aşiq idi. Sultan Ələddin ilə vəzirləri ona çox hörmət edir, mehr-məhəbbət bəsləyirdi. Batın əhli[1] bir adam idi. Sultanın yanında hörmət-etibarı vardı. Hər hansı bir adam üçün sultandan min dinar da istəsəydi, o verərdi". Evhaduddinin bəhs etdiyi Kamil Təbrizi ilə böyük arif Şəms Təbrizinin fərqli adamlar olduğuna artıq şübhəmiz qalmır. Çünki Şəms Təbrizi həmişə sözü gedən Evhaduddinin əleyhinə olmuş, Evhaduddin də Şəmsin ucalığını anlaya bilməmişdi. Burdan belə nəticə çıxır ki, onun Kayseridə rastlaşdığı Kamil Təbrizi başqa bir adamdır, yəni Kamil sözü o Şəmsəddinin ləqəbi deyil, adı olub.

Yenə Əflakinin "Ariflərin Menkıbələri" adlı kitabında Mövlana Cəlaləddin yuxarıda bəhs etdiyimiz ikinci Şəms Təbrizi haqqında, "Təbrizli Kamil Konya şəhərində səfeh kimi tanınan bir adamdır. Fakih Əhməddən bir neçə pillə daha üstündür" deyir. Həmin bu Kamil Təbrizinin dövrün sultanlarının, dövlət adamlarının hüzuruna rahat girib-çıxan, məclislərdə hansısa aləti götürüb bayıra tulladığı halda belə kimsənin ona söz deməyə cürət etmədiyi bir şəxs olduğu ortaya çıxır. Bəzi ürəyiaçıq ustadlar Mövlana Şəmsəddin Təbrizə Seyfullah, yəni "Allahın qılıncı" da demişlər. Məqalə kitabında da bu Kamil Təbrizinin adı eynilə bu cür anılır. Məqalənin ikinci bölümü belə başlayır:

"Pir Məhəmməddən soruşdular: Təbrizli Kamilin xirqəsinin önündə nə hala düşürsən? Əvvəlcə özünü yırtıcı bir quşun caynağında çırpınan sərçə kimi hiss edirsən, sonra deyirsən ki, bu yırtıcını öldürüb canımı qurtarım. Çünki o özü üçün yaşayır".

Yuxarıdakı sözlərdən aydın olur ki, Kamil Təbrizi də Allahın övliyasıdır. Evhaduddinin Kayseridə gördüyü, Mövlananın "Fakih Əhməddən bir neçə pillə üstündür" deyə bəhs etdiyi adam da Kamil Təbrizidən başqası deyil. Çünki bu şəxsin böyük arif Şəmsəddin Məhəmmədlə oxşarlığı heç yoxdur. Həm də Əflakinin verdiyi məlumatla, Mövlana Cəlaləddinin Şəms

[1] Ağılların idrak edə bilməyəcəyi qədər uca və əzabı gizli olan deməkdir.

haqqında istifadə etdiyi ifadələr arasında da ziddiyyət var. Mövlana ustadından heç vaxt "Kamil Təbrizi" kimi söz açmayıb. Bu açıqlamalardan sonra indi yenə əsl mövzumuza qayıda bilərik.

Böyük arif təbrizli Məhəmməd Şəmsəddin bəzi tədqiqatçıların bizə təqdim etdiyi kimi adi bir batini dərvişi deyil. O, əsrlərin yetişdirdiyi böyük mürşidlərdən üstün xüsusiyyətlərilə seçilən, tayı-bərabəri olmayan arifdir. Əgər belə olmasaydı, Mövlana kimi zahir və batın elmlərində ən yüksək dərəcəyə çatmış, vaxtında müdərrislik[1] və müftilik mərtəbəsinin ən üst pilləsinə yüksəlmiş görkəmli bir insanı, ilahi eşq atəşi ilə alovlandıra bilərdimi? Bu Təbriz günəşi, türk övliyası öz iş-gücünü bir kənara ataraq, hətta mədrəsəsini belə unudaraq Mövlanaya məna aləminin pəncərələrini açıb. Elə ona görə də bu cür xüsusiyyət və istedada malik arifin bəsit bir batını dərvişi ola bilməyəcəyinə; onun könlünün mədəniyyət və həqiqət mənbəyi olduğuna şübhəmiz qalmır. Məqaləni oxuduqca, Təbrizli Şəmsəddinin o vaxtlar hədis, fiqh[2], fəlsəfə və kəlam elmlərində kifayət qədər məlumata malik olduğunu, həmçinin dörd məzhəbin fiqh əsaslarını da mükəmməl bildiyini, o cümlədən şafilərin məşhur beş kitabından biri olan "Tənbeh" adlı əsəri də tədqiq etdiyini görürük. İllərlə Suriyanın Hələb və Şam kimi böyük şəhərlərdə yaşadığını, ərəblərlə münasibət qurduğunu, onların dilini yaxşı yazıb-oxuduğunu Məqalədəki onun istifadə etdiyi ərəbcə ifadələrdən başa düşmək mümkündür. Bir ara Ərzurum və Türkiyənin müxtəlif şəhərlərində müəllimlik edən Şəmsin Konyaya niyə gəldiyi bölümə qayıdaq:

Məqalədə bu sətirləri oxuyuruq:

"Allaha yalvardım. Ey Rəbbim! Məni övliyalarınla tanış və yoldaş et dedim. Yuxuda "Səni bir övliya ilə yoldaş edək" dedilər. "O övliya haradadır? – deyə soruşdum. Ertəsi gün bu övliyanın Rum diyarında (Anadoluda) olduğunu söylədilər. Bir neçə vaxtdan sonra yenə yuxuma girib "Hələ vaxtı çatmayıb, hər işin bir vaxtı-vədəsi var" dedilər".

Bu sözlər bizə Mövlananın özünə dərin mənalı həmsöhbət tapa bilmədiyi üçün məhdud çərçivədə sıxılıb qaldığını ifadə edir. Şəms də bunu eşidir və hiss edir. O, daxilindəki hissləri əks etdirəcək dərin və geniş bir könül axtarışındadır. Axtardığını da Mövlana Cəlaləddində tapır.

[1] Məscid və ya mədrəsədə müəllim
[2] Fiqh – ibadət və sair şəriət hökmləri haqqında bəhs edən elmdir.